AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
BAKI DÖVLƏT UNİVERSİTETİ

*Əlyazması hüququnda*

MƏLƏK VASİF QIZI SÜLEYMANOVA

# XV ƏSR AZƏRBAYCAN POEZİYASINDA BAŞLICA MOTİVLƏR (GÜLŞƏNI VƏ KIŞVƏRININ ANADILLI YARADICILIĞI ƏSASINDA)

**5716.01 – Azərbaycan ədəbiyyatı**

**Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**BAKI – 2014**

Dissertasiya işi Bakı Dıvlət Universitetinin Klassik Azərbaycan ədəbiyyatı kafedrasında yerinə yetirilmişdir

**Elmi rəhbər:** *Əməkdar elm xadimi,*
*filologiya üzrə elmlər doktoru, professor*
**NƏRGİZ ARİF qızı PAŞAYEVA**

**Rəsmi opponentlər:** *AMEA-nın müxbir üzvü,*
*filologiya üzrə elmlər doktoru, professor*
**NİZAMİ QULU oğlu CƏFƏROV**

*filologiya üzrə elmlər doktoru, professor*
**AZADƏ ŞAHBAZ qızı MUSABƏYLI**

**Aparıcı müəssisə:** **Azərbaycan Dövlət Pedaqoji Universitetinin Azərbaycan ədəbiyyatı tarixi kafedrası**

Müdafiə __16/05__2014-cü ildə saat ___ da Bakı Dövlət Universitetinin nəzdində filologiya üzrə elmlər doktoru və fəlsəfə doktoru dissertasiyalarının müdafiəsini keçirən D.02.181 Dissertasiya Şurasının iclasında olacaqdır.

**Ünvan:** AZ 1148, Bakı, Z.Xəlilov küçəsi 23, Bakı Dövlət Universiteti, əsas bina, II mərtəbə, Videokonfrans otağı.

Dissertasiya ilə Bakı Dövlət Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat göndərilmişdir _____ ________________ 2014-cü il

**D.02.181 Dissertasiya Şurasının elmi katibi, filologiya üzrə elmlər doktoru, professor:** **T.H.Hüseynov**

## TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Hər bir xalqın ictimai-siyasi tarixini, etnik-mədəni mənzərəsini, etnoqrafiyasını, mənəvi-ruhi aləmini, etik-estetik xüsusiyyətlərini, dini və elmi-fəlsəfi idrakını öyrənmək üçün ilk növbədə həmin xalqın bədii təfəkkürünün daşıyıcısı olan ədəbi klassiklərin söz xəzinəsinə müraciət etmək lazımdır. Bu klassiklər ənənəvilik, vərəsəlik prinsiplərinə novatorcasına tabe olaraq, xələflik və sələflik vəzifəsini dərk edib layiqincə yerinə yetirərək mənəvi zənginlik zirvəsini fəth etməyə cəhd etmişlər. Özümüzü tanımaq, milli soykökümüzü, türklüyümüzü qorumaq, gələcək elmi-bədii təfəkkür tərzini formalaşdırmaq və düzgün istiqamətə yönləndirmək naminə ədəbiyyat tariximizi araşdırıb tədqiq etmək vacib məsələlərdəndir.

Uzun illərdən bəri tariximizin, ədəbiyyatımızın sərt siyasi-ideoloji təsirə məruz qalması səbəbindən bir çox mənəvi abidələrimiz ya yaddaşlardan kənarlaşdırılmış, ya hakim ideologiyaya tabe etdirilmiş, tarixi saxtalaşdırılmış, ya da onların öyrənilməsində türk-islam ideologiyasından tamamilə yan keçilmişdir. Nəticədə ədəbiyyat tariximizin bəzi nümunələri layiq olduğu mənəvi dəyərdən salınmış, dini-fəlsəfi təfəkkürümüzə materialist və ateist don geydirilmişdir. Bu ab-hava, xüsusilə qədim və orta əsr ədəbiyyatı üçün daha xarakterik idi. Göstərilən proses o dərəcədə milli ideologiyamızın qanına hopdurulmuşdur ki, müstəqillik əldə etdiyimiz 22 il ərzində belə bu təsirdən yaxa qurtara bilməmişik. Bu sahədə nə qədər yeni tədqiqatlar aparılsa və düzgün nəticə əldə edilməyə cəhd göstərilsə də, görüləsi işlər yenə də çoxdur.

Orta əsrlər, xüsusilə XIV-XVI yüzilliklər milli mədəni tariximizin zəngin səhifələrindəndir. XV yüzil Azərbaycan ədəbiyyatının həm doğma ana dilinin inkişafı, həm milli təfəkkür tərzinin, fəlsəfi-ictimai, dini-təsəvvüfi görüşlərin yüksəlişi baxımından çox məhsuldar bir dönəmidir. Qazi və Nəsimidən sonra vərəsəlik, ənənəvilik prinsipləri qorunaraq bu sərvətləri inkişaf etdirib yeniləşdirərək Füzuli əsrinə ötürən Gülşəni, Kişvəri, Həbibi, Həqiqi, Xəlili, Hamidi, Şah Qasım Ənvar, Bədr Çirvani, Hidayət əsri olan XV yüzilliyin ədəbi mühitinin geniş tədqiqata ehtiyacı var. Bu baxımdan, bu dövr ədəbiyyatını və bu dövr ədəbiyyatında yer tutan motivləri araşdırmaq olduqca aktualdır. Çünki məhz bu motivləri araşdırarkən biz ədəbiyyatımızın hansı ab-hava ilə nəfəs aldığını, hansı ənənələr üzərində yüksəldiyini və həmin ənənələri öz dövrlərinə görə novatorcasına nə şəkildə işlətdiklərini görə bilərik. Eyni zamanda, bu

motivləri xüsusilə dövrün aparıcı ədəbi simaları olan Şeyx İbrahim Gülşəni və Nemətullah Kişvəri kimi görkəmli ədəbi şəxsiyyətlərin yaradıcılıqları əsasında öyrənmək, araşdırmaq olduqca zəruridir. Çünki XV yüzil ədəbiyyatında əks olunan motivlər məhz bu görkəmli ədəbi simaların yaradıcılığında daha bariz şəkildə özünü göstərməkdədir.

**Mövzunun işlənmə səviyyəsi.** XV əsr ədəbiyyatı, onun ideya-mövzu qaynaqları ayrı-ayrı məqalələri, dərslikləri, kitablara yazılmış ön sözləri və əlyazmaların tədqiqini çıxmaq şərtilə geniş tədqiq olunmamışdır. Çap olunan mənbələrin əksəriyyətində isə həmin dövr klassiklərinin yaradıcılığına təriqət ədəbiyyatı, ezoterik estetika və dini-təsəvvüfi təfəkkür kontekstindən yanaşılmamışdır. Amma bu dövr ədəbiyyatının diqqətdən tam kənarda qaldığını söyləmək də insafsızlıq olardı. XV əsr Azərbaycan poeziyası haqqında yığcam şərhlərə H.Araslı, R.Azadə, Ə.Səfərli, X.Yusifli, Q.Cahani, C.İbrahimov, A.Musayeva, C.Qəhrəmanov, V.Feyzullayeva, A.Mirzəyev, T.Kərimli, F.Köprülüzadə, Z.Quluzadə, C.Nağıyeva, Ş.Süleymanlının əsərlərində rast gəlmək olar.

Kişvərinin həyat və yaradıcılığı haqqında ilk məlumatı 1946-cı ildə akad.H.Araslı vermişdir. Bu haqda müfəssəl məlumatı R.Eyvazova "Kişvəri dilinin morfoloji xüsusiyyətləri" adlı əsərində, C.Qəhrəmanov və Ə.Səfərli Kişvəri "Divan"ının ön sözündə, şairin son illərdə yeni tapılmış əlyazmaları əsasında tərtib olunmuş "Türk divanı"nın ön sözündə Məhəmməd Hüseyni, Q.Cahani, Z.Quluzadə vermişdir.

XV-XVI əsrlər Azərbaycan ədəbiyyatının tanınmış tədqiqatçısı prof.A.Musayeva son illər bu vaxta qədər adı elm aləminə az məlum olan XV yüzilin görkəmli ictimai-siyasi və ədəbi şəxsiyyəti sayılan Şeyx İbrahim Gülşəninin yaradıcılığını elmi-tədqiqat müstəvisinə çıxartmış, onun adını ədəbiyyat tariximizin dövriyyəsinə daxil etmişdir. Prof.A.Musayevanın tədqiqatlarında XV əsr klassiklərindən olan, təriqət ədəbiyyatının görkəmli nümayəndəsi Şeyx İbrahim Gülşəni və onun əlyazmaları geniş işıqlandırılmışdır.

Türk tədqiqatçıları M.Rıxtım, K.Himmet, R.Serin, rus alimi C.Triminqem tərəfindən Şeyx İbrahim Gülşəni Xəlvətilik təriqətinin şeyxi, filosof nöqteyi-nəzərindən tədqiq edilmişdir.

Bütün bunlara baxmayaraq, XV əsr Azərbaycan poeziyası, bu dövrün klassikləri olan Şeyx İbrahim Gülşəni və N.Kişvəri geniş tədqiqat obyekti kimi diqqətdən kənarda qalmışdır.

**Tədqiqatın məqsəd və vəzifələri.** Elmi işin yazılmasının əsas məqsədi XV əsr Azərbaycan ədəbiyyatı tarixini daha dolğun, tam və

sistemli şəkildə tədqiqata cəlb etmək, bu vaxta qədər mövcud olan ənənəvi baxışlardan yan keçərək, müasir milli, dini-fəlsəfi və elmi düşüncə tərzi ilə düzgün və obyektiv təhlil edib qiymətləndirməkdir. Eyni zamanda, Gülşəni və Kişvəri bədii-estetik fikrini obyektiv və aktual qiymətləndirmək, onların yaradıcılıqlarının ədəbiyyat tariximizdəki yerini, bütövlükdə isə onların yaradıcılıqları da daxil olmaqla XV yüzil ədəbiyyatının müxtəlif motivlərdən qaynaqlanan məzmununu və poetik ifadəsini elmi, bədii, estetik, dini-təsəvvüfi dəyərlər sferasından qiymətləndirməkdir.

Elmi işdə XV əsr Azərbaycan ədəbiyyatının motiv qaynaqlarını düzgün təhlil etmək üçün aşağıdakı məsələlərə xüsusi əhəmiyyət verilib.

- XV yüzilliyin ümumi tarixi-siyasi, ədəbi-mədəni durumunu təhlil edib, ədəbi prosesi qiymətləndirmək;
- XV əsr Azərbaycan ədəbiyyatının əsas ideya-mövzu, poetik qaynaqlarını araşdırmaq;
- XV əsr Azərbaycan şeirində Quran rəvayətlərinin bədii fikrin obrazlı ifadəsi baxımından tədqiqinə, Azərbaycan poeziyasınn əsas qaynaqlarından olan təsəvvüf və onun anadilli poeziyada digər (dini və dünyəvi) ideyalarla nisbəti, orta əsrlərdə aparıcı mövzu olan ilahi məhəbbətin tərənnümü məsələlərinə diqqət yetirmək, Quran qissələrinin ilkin mənaları ilə onların təsəvvüfi mənaları arasında müqayisələr aparmaq, hər iki istiqamətin ədəbiyyatımıza olan qarşılıqlı təsirini öyrənmək;
- Bu aspektdən Gülşəni poeziyası əsasında dini-təsəvvüfi, irfani, təriqət ədəbiyyatının əsas xüsusiyyətlərini, onun ideya-bədii xüsusiyyətlərini, estetik qaynaqlarını tədqiq etmək, bu lirikanın düzgün qavranılması üçün bəzi rəmzi-simvolik ifadələrin açılmasına nail olmaq, onun klassik şeirimizdə mövqeyini müəyyən etmək;
- Kişvəri poeziyasını bədii-estetik və ideya-mövzu baxımından təhlil etmək;
- Kişvəri poeziyasında ictimai kədərin bədii-estetik özəlliklərini araşdırıb, onun səbəblərini aydınlaşdırmaq, Füzuli kədərinin sələfi kimi təhlil etmək;
- Gülşəni və Kişvəri poeziyasının Azərbaycan ədəbiyyatında mövcud olan dini-fəlsəfi və dünyəvi görüşlərin təşəkkülündəki rolunu qiymətləndirmək;

**Tədqiqatın elmi metodologiyası.** Elmi araşdırmaların aparılmasında tarixi-müqayisəli, nəzəri və təsviri yanaşma üsulundan istifadə edilmişdir. Tədqiqatda Azərbaycan ədəbiyyatı tarixinə aid elmi-nəzəri əsərlərdən, türk və rus tədqiqatçılarının araşdırmaları və dini-təsəvvüf təliminə həsr

olunmuş ədəbiyyatdan istifadə olunmuş, fəlsəfi və rəmzi-simvolik ifadələrin açıqlanmasında şərh üsulundan istifadə edilmişdir.

**Tədqiqatın elmi yeniliyi.** İndiyədək XV əsr Azərbaycan ədəbiyyatı Qazi-Nəsimi və Xətai-Füzuli dühaları arasında keçid olaraq bu fonda kölgədə qalmış və lazımınca tədqiq olunmamışdır. Aparılan bəzi araşdırmalarda da bu dövrə çox zaman birtərəfli yanaşılmışdır. Bu baxımdam bu tədqiqat işində aşağıdakı yeniliklər araşdırma müstəvisinə çıxarılmışdır.

- XV əsrdə ədəbi proses təhlil olunaraq bu dönəm poeziyasının Azərbaycan ədəbiyyatında mövqeyi, başlıca motivləri, fikir qaynaqları sistemli şəkildə bir-biri ilə qarşılıqlı əlaqədə tədqiq olunmuşdur.
- XV əsr lirik şeirində Qurandan alınmış qissələr, motivlər və iqtibasların ideya-bədii qaynaq kimi mövqeyi müəyyənləşdirilmişdir.
- Gülşəninin anadilli poeziyası sırf təriqət və təsəvvüf ədəbiyyatı kimi qiymətləndirilmiş, onun bir çox poeziya nümunələri ezoterik təlim, təsəvvüf rəmzləşməsi baxımından açılmışdır.
- Kişvərinin poeziyası ilk dəfə olaraq ideya-mövzu, bədii-estetik cəhətdən təhlil olunmuşdur.
- Kişvərinin poeziyasında ikili mahiyyətdən doğan ziddiyyət, bu ziddiyyətin qarşılıqlı tamlaşması, təsəvvüf, dini və dünyəvi ideyaların qarşılıqlı nisbəti tədqiq edilmişdir. Kişvəri poeziyası ilk dəfə olaraq təsəvvüf motivlərinin daşıyıcısı kimi qiymətləndirilmişdir.
- Kişvəri poeziyasında olan ictimai-sosial motivlər onun yaradıcılığındakı ictimai-dünyəvi kədərin səbəbləri kimi araşdırılmışdır.

**Tədqiqatın nəzəri-praktik əhəmiyyəti.** Elmi-tədqiqat işi həm XV əsr Azərbaycan ədəbiyyatı haqqında araşdırmaların aparılmasında, həmin dövr poeziyasının nəzəri problemlərinin, klassik estetika mənbələrinin öyrənilməsində yardmçı ola bilər. Eyni zamanda, yeni ideologiya baxımından hazırlanmış dərsliklərin, ümumiyyətlə, ədəbiyyat tariximizin və xüsusilə Gülşəni və Kişvəri yaradıcılığı haqqında meydana çıxacaq əsərlərin tərtibində istifadə oluna bilər. Dissertasiya təsəvvüf fəlsəfəsi, ədəbiyyatı və istilahları ilə məşğul olan alimlər üçün də əhəmiyyətlidir.

**Tədqiqatın aprobasiyası**. İş Bakı Dövlət Universitetinin Azərbaycan ədəbiyyatı tarixi kafedrasında yerinə yetirilmişdir. Elmi işin əsas müddəaları Beynəlxalq konfranslarda məruzə şəklində söylənmiş, Bakı Dövlət Universitetinin, Azərbaycan Milli Elmlər Akademiyasının elmi nəşrlərində çap olunmuşdur.

**Dissertasiya işinin quruluşu.** Dissertasiya işi giriş, dörd fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiya işinin "Giriş" hissəsində mövzunun aktuallığından, qarşıya qoyulan başlıca elmi məqsəd və vəzifələrdən, tədqiq tarixindən, tədqiqatın elmi yeniliyi, nəzəri və təcrübi əhəmiyyəti, metodologiyası, aprobasiyası və strukturundan danışılır.

İki bölmədən ibarət olan birinci fəsil **"XV yüzillikdə tarixi-mədəni durum və ədəbi proses"** adlanır. Bu fəsildə, əsasən, Azərbaycan ədəbiyyatı tarixində bu dönəmin yeri, mövqeyi, özəl xüsusiyyətləri, sonrakı mərhələlərə təsiri təhlil edilir.

**"Dövrün ictimai-siyasi vəziyyəti və ədəbi-mədəni mühit"** adlanan birinci bölmədə e.ə. VIII əsr abidəsi olan Avestadan başlamış təlatümlü, möhtəşəm, vərəsəlik prinsipinə əsaslanan spiralvari inkişaf yolu keçmiş Azərbaycan ədəbiyyatı tarixinin ən rəngarəng mərhələlərindən olan XV əsrin gərgin siyasi-tarixi durumundan, bu durumun ədəbi-mədəni mühitə təsirindən danışılır.

XV əsr ictimai-siyasi, tarixi durumu ilə Azərbaycan tarixində xüsusi bir mərhələni təşkil edir və bu dövr tarixinin müsbət cəhəti Qaraqoyunlu, Ağqoyunlu kimi müstəqil dövlətlərin yaranmasıdır. 1501-ci ildən etibarən isə Azərbaycan dövlətini yaradan və türk dilini rəsmi dövlət dili elan edən, bununla da həm dövlətçilik ənənələrinin, rəsmi üslubun inkişafına, həm də Azərbaycan dilinin elmi səviyyədə formalaşmasına təkan verən Səfəvilər dövləti yarandı. Bu dövlətlər türk-oğuz mədəniyyətinin özəyi olan Azərbaycan mədəniyyətinin: türk – islam ədəbiyyatının, xalq sənətkarlığının, xalq incəsənətinin, aşıq yaradıcılığının təkamülünü şərtləndirdi. Ölkədə iqtisadi, ədəbi-bədii, elmi-mədəni mühit də inkişaf edirdi, müəyyən ölkədaxili islahatlar aparılır, digər dövlətlərlə diplomatik və ticarət əlaqələri də qurulurdu.

XV əsr ədəbiyyatı əqli-idraki, əxlaqi-mənəvi, ictimai-sosial, bədii-estetik, rəmzi-simvolik, dini-fəlsəfi, milli, xəlqi-realist dəyərləri özündə cəm etmişdir və Əfsəhəddin Hidayət, Xəlili, Sürurí, Şahi, Xəzani, Bəsiri, Şah Qasım Ənvar, Bədr Şirvani, Hamidi, Cahanşah Həqiqi, Kişvəri, Həbibi, Xacə Əbdülqadir Marağayi, Əşrəf Marağayi, Şeyx İbrahim Gülşəni və s. kimi görkəmli klassiklər yetişdirmişdir.

Bu dönəmin tarixi-siyasi və ədəbi-mədəni durumunu araşdırarkən həmin dövr ədəbi sənət dünyası aşağıdakı kimi yekunlaşdırılmişdır.

1. Bu yüzillikdə, müəyyən mənada, tarixi-siyasi cəhətdən nisbi sakitliklə əlaqədar ədəbiyyatın, incəsənətin müxtəlif sahələri inkişaf etmişdir. Bu faktora həm milli dövlətçiliyimizim təşəkkülü, eyni zamanda maarifpərvər, bədii-estetik zövqə malik hökmdar-şairlərin dövlət başçılığı daxildir. Ədəbiyyat və incəsənəti himayə edən Cahan şah Həqiqi, Uzun Həsən, Sultan Yaqub, kimi hökmdar-şairlər estetik idealın ifadəsinə xidmət edirdilər.

2. Bu dövr ədəbiyyatı həm kəmiyyət, həm də keyfiyyət baxımından məhsuldarlığı ilə seçilir. Bir çox şairlərin yetişməsi dövrün ədəbiyyatının ideya-məzmun müxtəlifliyini şərtləndirir.

3. Anadilli ədəbiyyatın geniş vüsət alması. Bu proses XIII əsrdə İzzəddin Həsənoğlu və Şeyx Səfidən başlansa da, Nəsimidən sonra genişlənərək, demək olar ki, farsdilli ədəbiyyatı yetərincə sıxışdırmışdır.

4. Anadilli ədəbiyyat hakim olmaq şərtilə, üçdilli ədəbiyyat (ərəb, fars, türk dillərində) inkişaf edirdi ki, buna da yüksək sənətkarlıq, dərin elmi-fəlsəfi bilik tələb olunurdu. Əsas tendensiya isə, sözsüz ki, milli ruha, milli dilə istiqamətlənirdi.

5. Xəlqiliyin formalaşması. Həm klassik Şərq ədəbiyyyatından gələn tərkiblər, həm də xalq təfəkküründən gələn ifadələr bir tərəfdən yazılı ədəbiyyatın folklorla, xalq yaradıcılığı, aşıq sənəti ilə əlaqələrini möhkəmləndirirsə, digər tərəfdən mövzu və problem axtarışlarında milli müəyyənliyi, xalq taleyini qabartmış olur, ədəbi düşüncədə milli məzmunun, xəlqiliyin dərinləşməsinə təkan verirdi.

6. XV əsrdə Azərbaycan dilinin poeziya dili səviyyəsinə yüksəlməsi, ana dilinin leksik-qrammatik və üslub sistemindəki xəlqi istiqamətin aparıcı olması Azərbaycan ədəbi dilinin təşəkkül və təkamülünü reallaşdırırdı.

7. XV əsrdə təkcə Azərbaycanda deyil, bir çox Şərq ölkələrində saraylar türkləşdirilirdi. Teymurilərin təşəbbüsü ilə başlayan bu prosesin davamı olaraq, Orta Asiyada Hüseyn Bayqara, Azərbaycanda Sultan Yaqub sarayında türkdilli ədəbiyyat, ümumiyyətlə, türk dili yüksəlməyə başladı. Ümummüsəlman ədəbiyyatının idarə mərkəzi türk ədəbiyyatına keçdi, üçdilli ədəbiyyata hökmranlıq etməyə başladı.

8. XV əsrdə İranda, Suriyada, Orta Asiyada, Misirdə, Türkiyədə Azərbaycan mühacirət ədəbiyyatı formalaşırdı. Siyasi-ictimai vəziyyətlə, iqtisadı amillərlə bağlı olaraq sənətkarlar vətəni tərk edib qürbətdə milli ədəbiyyat yaradırdılar.

9. Mütərəqqi hadisələrlə zəngin Hüseyn Bayqara sarayına maraqla və Teymurun yürüşləri ilə bağlı bir sıra siyasi-iqtisadi səbəblərlə əlaqədar XV əsr Azərbaycan ədəbiyyatına Nəvai dili və cığatay türkçəsinin təsiri danılmaz idi. Bu, bir çox şairlərin yaradıcılığında özünü aşkar göstərirdi.

10. Milli dildə ədəbiyyatın vüsətinə baxmayaraq, əruz vəzni və qəzəl hökmran idi. Ara-sıra heca vəznində nümunələr yaransa da (Xəzani, Gülşəni), əruz vəzni poeziyada aparıcı vəzn hesab olunmurdu. Amma burada da türkləşmə, xəlqiləşmə özünü göstərirdi.

11. Dini-təsəvvüfi ideyalar bu dövr Azərbaycan ədəbiyyatının aparıcı ideologiyası idi. Bununla əlaqədar təriqət ədəbiyyatı hakim idi. Ədəbiyyatda dini-fəlsəfi ideyalar, dərin fikirlər, simvolik ifadələr, rəmzləşmə, dini məxəzlərdən iqtibas və təlmihlər özünü geniş göstərirdi.

Beləliklə, XV əsr Azərbaycan ədəbiyyatı istər xronoloji, istərsə də sənətkarlıq cəhətdən Qazi Bürhanəddin – Nəsimi zirvələri ilə Xətai – Füzuli zirvələri arasında keçid mərhələsidir. Süruri, Həbibi, Kişvəri, Gülşəni, Şahi, Hamidi, Xəlili, Ənvar, Bədr Şirvani və b. Qazi Bürhanəddin – Nəsimi zirvəsinin xələfləri olmaqla yanaşı Xətai – Füzuli zirvəsinin sələfləri olmuşlar, yeni zirvələrin formalaşması üçün baza rolunu oynamışlar.

Birinci fəslin **"XV əsr Azərbaycan poeziyasının ideya qaynaqları"** adlanan ikinci bölməsində XV əsr Azərbaycan poeziyasının mövzu rəngarəngliyindən, əsas motivlərindən danışılır.

Əski türk mifologiyası, "Dədə Qorqud" və digər folklor abidələrinin zəngin milli-mənəvi təməli üzərində qurulan milli ədəbiyyatımızda Nizaminin insan idrakına sığmayan dərin məzmunlu fəlsəfi, elmi, ictimai məzmunlu əsərləri ilə Şərqdə yeni bir məktəb və Nəsiminin irfani-dini motivli ideyaları ilə kamil insan fenomeni yarandı. Bu ədəbiyyat məzmun və motiv baxımından ənənə və yenilikləri cəmləşdirərək XV əsrə qədər Azərbaycan ədəbiyyatında mövcud olan motivləri daha da inkişaf etdirdi. Ənənəvi şəkildə ta qədimdən gələn motivlər konkret tarixi şəraitlə, ədəbi miqyaslarla əlaqəli olaraq XV əsr poeziyasında yeniləşdi. Klassiklərimizin dünyagörüşü, bədii-mənəvi zövqü, fəlsəfi duyumu, daxili zənginliyi, tarixi-siyasi duruma münasibəti, idraki-mənəvi kamilliyi onların yaradıcılığındakı motivləri şərtləndirdi. Belə ki, əvvəlki ədəbi dövrlərin ənənəvilik prinsipinə sadiq qalan XV əsr Azərbaycan ədəbiyyatında əsasən aşağıdakı başlıca motivlər özünü göstərirdi:

1. Mifoloji təfəkkürdən alınan motivlər (Yunan, Şərq və türk mifologiyası). XV əsr Azərbaycan poeziyasında müxtəlif mənbələrdən alınan mifoloji motivlər milli və dini ideologiyaya uyğunlaşdırılırdı.

2. Hər bir mədəniyyət hadisəsi bir çox xalqların tərəqqipərvər ideya və motivlərini özündə cəmləşdirərək beynəlmiləl xarakter daşıyır. Bu baxımdan, tədqiq olunan dövrdə Şərq ədəbiyyatından götürülmüş motivlərə geniş yer verilmişdir.

3. XV əsrdə anadill poeziya şifahi xalq ədəbiyyatı motivlərindən daha geniş şəkildə bəhrələnmişdir. Bu da ədəbiyyatın xəlqiləşməsinə, realistləşməsinə şərait yaradırdı.

4. Bütün dünya ədəbiyyatının bəhrələndiyi Nizami Gəncəvi poeziyasının motivləri, sözsüz ki, milli ədəbiyyatımızda da öz dərin izini buraxmaya bilməzdi. Nizami əsərlərinin mövzu və idaeyalarından, elmi-nəzəri görüşlərindən qidalanan XV əsr Azərbaycan poeziyası bu xəzinənin daşıyıcısı idi.

5. Bir çox türk dahilərinin elmi-fəlsəfi dünyagörüşü, ideya-estetik xüsusiyyətləri ümumtürk ədəbiyyatının tərkib hissəsi olan XV əsr Azərbaycan poeziyasına geniş şəkildə öz təsirini göstərirdi. Təriqət, təsəvvüf ədəbiyyatının aparıcı olduğu bu dönəmində Nəsimi, Yunus Əmrə, Mövlana Cəlaləddin və s. kimi mənəviyyat dahilərinin ideoloji motiv zənginliyi klassiklərin ruhi-mənəvi qidasına çevrilmişdi. Bu dövrdə Nəsiminin təsiri duyulmayan sənətkar tapmaq çətin idi.

6. İslam dini yaranandan sonra bütün incəsənət sahələri onun təsiri altında tərəqqi etməyə başladı. Bəşəriyyəti öz nurunda işıqlandıran İslam dini humanizm daşıyıcısı olan ədəbiyyatı ilk olaraq özünə silah etdi. İslam və onun dini kitabı olan Qurani-Kərimin ayələri, qissələri, peyğəmbərlərimizin həyatı ilə bağlı motivlər və hədislər bütün müsəlman xalqları ədəbiyyatında, o cümlədən, Azərbaycan ədəbiyyatında da aparıcı mövqe tuturdu. Əxlaqi-mənəvi dəyərlər islam dəyərləri ilə zənginləşərək tamlaşdı. Bu motivlər sənətkarların dini-fəlsəfi düşüncə tərzinin ideya-bədii qaynağını təşkil edirdi.

7. Təsəvvüf ideyaları islam dininin mənəvi və elmi dayaqları üzərində qurulduğundan bu ideyalarla bağlı motivlər Nəsimidən sonra xüsusilə geniş vüsət aldı. Eyni zamanda təriqət ədəbiyyatı da bu ideyaların əsasında inkişaf etməyə başladı. Bu motivlərin məqsədi insanı kamilləşdirmək, Haqqın rizasını qazanmaq, yaradılışı dərk etmək və islami yaşam yollarını insanlara təlqin etmək idi.

8. Dünyəvi və ilahi məhəbbət bölgüsü ilə bölünən, son nəticədə bir amala – Allaha-Təalaya aparan məhəbbət motivləri bütün dövrlərdə, eyni zamanda XV əsrdə də ədəbiyyatın başlıca motivlərindən idi. Orta əsrlərdə insanın həm cismani, həm də mənəvi azadlığı üçün yeganə təsirli silah olan bu motiv hər bir sənətkarın yaradıcılığnın ana xəttini təşkil edirdi.

9. Zamanə heç də gözəllik və məhəbbətdən ibarət deyil. Bu incə və ülvi zövqlərlə yanaşı ictimai-siyasi nöqsanların mövcudluğu ədəbiyyatda ictimai-siyasi motivlərə müraciəti labüdləşdirirdi. Cəmiyyətdə kök salmış ictimai-mənəvi qüsurların tənqidi bu motivlərin əsasını təşkil edirdi.

11. Mühitdəki neqativ halları tənqid edən ictimai motivlər bu mühitin müalicəsinə, mənəvi-etik bərpasına yönəlmiş əxlaqi-didaktik motivlərlə paralel işlənirdi. Klassik poeziyada bütün mövzu və ideyalar əxlaqi-etik konsepsiyanın tərkib hissəsi kimi çıxış edirdi.

12. İnsan təbiətin ayrılmaz hissəsidir. Predmeti insan olan ədəbiyyatın da ayrılmaz tərkib hissəsi olan təbiət motivləri hər bir sənətkarın yaradıcılığında insan obrazını tamamlayaraq, onu aşkar etmək faktoru kimi ortaya çıxır. Poeziyada insan, təbiət və humanizm vəhdətdədir.

Qeyd edək ki, XV əsr poeziyasında mövcud olan bütün bu motivlər ən başlıca motiv olan məhəbbət və ictimai motivlərin tərənnümünə, reallaşmasına xidmət edir.

Müxtəlif mövzu və ideya qaynaqları, motiv rəngarəngliyi üzərində inkişaf edən XV əsr Azərbaycan poeziyası dini-fəlsəfi ideyalar, dərin fikirlər, simvolik ifadələr, dini məxəzlərdən iqtibas və təlmihlərlə zəngin bir xəzinə olmaqla sonrakı dövrlərdə dühaların yaradıcılığı üçün dəyərli mənbə, tipoloji qaynaq olmuşdur.

**Disertasiya işinin ikinci fəsli "Ş.İ.Gülşəninin yaradıcılığında əsas motivlər"** adlanır və üç bölmədən ibarətdir: "Gülşəni və xəlvətilik", "Dini motivlər" və "İlahi eşq".

**"Gülşəni və xəlvətilik"** adlanan birinci bölmə şairin poeziyasının fəlsəfi, dini və bədii xüsusiyyətlərini düzgün qavramaq və təhlil etmək üçün açar rolunu oynayır.

Gülşəninin yaradıcılığının əsas qayəsini düzgün qiymətləndirmək üçün onun xəlvətilik təriqətinin məşhur şeyxlərindən biri və eyni zamanda gülşəniyyə təriqətinin yaradıcısı olduğuna xüsusi diqqət yetirmək lazımdır.

XIV-XV əsrlərdə bu təriqətin Şirvan, Qarabağ, Gəncə - Azərbaycan, Kiçik Asiyada yayılmasında dövrün ən görkəmli filosofları, ictimai-siyasi xadimləri olan Seyid Yəhya Şirvani və onun tələbəsi Dədə Ömər Rövşəni mühüm rol oynamışlar.

Xəlvət Peyğəmbər Əleyhissəlamın bütün ilahiyyat əhlinə buyurduğu kimi, heç olmazsa, hər ildə bir ay tək bir guşəyə çəkilib, bir kimsənin olmadığı yerdə özünü Haqqa təslim edib, könül güzgüsünü dünyəvi çirkinliklərdən təmizləməyə və parlatmağa və Haqdan gələn ilahi nurlarla batinini və zahirini pak etməyə və özünü Peyğəmbər əleyhissəlamın mənəviyyat aləminin hüzurunda hiss edərək, o ruhlara daimi ləzzətləri verən mütləq varlıq olan İlahiyə gecə-gündüz qəlbindən keçirdiyi niyyəti qəbul olmaq surəti ilə bir az qənaətkarlığa razı olaraq oruclu olan halda keçinmək deməkdir.

Xəlvətilik təriqətinin davamçısı və gülşəniyyə təriqətinin başçısı olan Şeyx İbrahim Gülşəninin də bütün elmi və bədii yaradıcılığı bu dini təsəvvüfi ideyalara əsaslanır. Tədqiqatçılara görə, Şeyx İbrahim Gülşəni vəhdət əl vücud təliminin davamçısı olmuşdur. Eyni zamanda, onun fikirləri xəlvətiyyə təriqətinin şeyxi Seyid Yəhya Bakuvinin təliminə əsaslanmışdır. Onun nöqteyi-nəzərinə görə, insan kiçik aləmdir və böyük aləmin tərkib hissəsidir. Kamil insanlar özündə ilahi qüvvəni əks etdirməyi bacarırlar

Şeyx İbrahim Gülşəninin Mövlananın "Məsnəvisi"nə uyğun yazdığı "Məsnəviyi-mənəvi", Mahmud Şəbüstərinin "Gülşəni-raz" əsəri tərzində qələmə aldığı "Əzhari-Gülşən", "Pəndnamə", "Təfsiri-ayəyi-fatihə", "Şərhi-Məsnəvi", "Kənzil-cəvahir", "Razinamə", "Ma'yi-məin" (Axar su), "Müntəxəbati-məqalati-Gülşəni"[1] kimi fəlsəfi traktatları ilə yanaşı, fars, ərəb (əlyazma şəklində) və ana dilində yazdığı mükəmməl bir divanı da dövrümüzə qədər gəlib çatmışdır. "Arif odur ki, xəlvətidə guşəgir olub", - deyən şair divanında həqiqi ariflik ilə bədii sözün ecazkar qüvvəsini qovuşduraraq poeziyanın gözəl nümunələrini yaratmışdır. Ümumiyyətlə, "...Xəlvətilərin əsas məqsədini, onun insan və cəmiyyətlə bağlı olan düşüncələrini olduğu kimi bilmək üçün Gülşəni yaradıcılığına əsaslanmalıyıq".[2] Bu irs isə xəlvətiyyədə insanpərvərliyin üstün yer tutduğunu, onun ali ideyalara xidmət etdiyini təsdiq edir.

Xəlvət qılıban gülşəni-hüsnün həvəsini,
Həmdəm oluban cam içəlim bir sənü bir mən.
Könlüm hərəmi eşqini xəlvət qılıban der,

[1] Musabəyli A. Şeyx İbrahim Gülşəni Bərdəi və türk divanı. I cild. Bakı: Elm və təhsil, 2012, s. 91.
[2] Musayeva A. Dədə Ömər Rövşəni. Əlyazmalar üzərində araşdırmalar. I cild. Bakı: Nurlan, 2003, s. 26.

Canumə rəvan ol, gözəlim, bir sənü bir mən.[1]

Gülşəni Allahın hüsnünü görmək məqsədilə xəlvətə girən salikin vəhdət camını içəcəyinə, zikr və masivadan, maddi varlıqdan təcrid olunaraq İlahiyə qovuşacağına və cismani olan maddi aləmlə mənəvi olan ruhani aləm arasında qarşılıqlı əlaqə yarandığına inanır.

Cahani eşqi-xəlvətgah şəhadətsiz görən bilür,
Məhəbbətdən sevüb vəchin edən xəlvətdən adəmdir.[2]

Şairin fikrincə, xəlvət qəlbin Allaha yaxınlığıdır. Bu yaxınlıq Allahla olan ünsiyyət, tənhalıqla bağlı ekstaz halında gerçəkləşir. Təfəkkürü olmayan insana xəlvətin faydası olmaz. Qul üçün saf nur mənbəyi, haqqın sirləri xəlvətin özündədir. Deməк, xəlvət yolu ilə ilahi vəhdətdən keçən aşiq özünüdərk mərtəbələrindən, məqamlarından keçir.

Gülşəni yaradıcılığının dərin, bədii fəlsəfi tutuma malik olması əsərlərindən aydın olur. Xəlvətilik təriqətində təsəvvüfün irfan məntiqini dərindən dərk və təbliğ edən Gülşəni yaradıcılığı böyük elm və idrak mənbəyidir. O, insanın gerçəkliyi dərk etməsində və sənət əsərlərinin yaradılmasında ağıl və eşq mücadiləsini əsas tutan bir şairdir.

**İkinci fəslin "Dini motivlər"** adlanan ikinci bölməsində şairin poeziyasında Qurandan alınmış qissələr, motivlər və iqtibasların ideya-bədii qaynaq kimi mövqeyi müəyyənləşdirilmişdir.

Gülşəni yaradıcılığı orta əsr bədii-fəlsəfi təfəkkür tərzinə xas olan mühüm cəhətləri, əvvəldə qeyd edilən bir çox motivləri özündə cəm etmişdir. Bu hikmət xəzinəsi İslam mədəniyyətinə xas olan ümumbəşəri dəyərlərin, ali həqiqətlərin, milli psixologiyanın, elmi qaynaqların inikasıdır. Dərin islami təfəkkürə malik olduğundan, təriqət şairi kimi tanındığından şairin əsərləri, əsasən, dini və təsəvvüfi ideyalara xidmət etmişdir. Onun əsərlərində təsəvvüflə bağlı rəmzi obraz və ifadələrin əsasında Qurani-Kərimin bir çox ayələri, hədis və qissələrlə bağlı bədii obrazlar öz əksini tapır. Sözsüz ki, dini-təsəvvüfi mövzuların çoxluğu onun dünyagörüşü, təriqət ideyalarını təbliğ etməsi ilə bağlıdır.

Gülşəni öz yaradıcılığında Qurani-Kərimdən götürülmüş iqtibas və təlmihlərə, qissələrə, hədislərə çox müraciət etmiş, Qurandan götürülmüş motivləri, ayələri özünün poetik bacarığı ilə birləşdirərək əvəzsiz şeir örnəkləri yaratmışdır.

İslamın əsas beş şərtindən biri tovhid – "La ilahə illəllah"dır. Tovhid Allahın təkliyi haqqında hökmü dərk etmək, Allahın zatını ağılla təsəvvür,

---

[1] Gülşəni. Şeyx İbrahim Bərdəi. Divan, Bakı: Avrasiya Press, 2006, s. 67.
[2] Gülşəni. Şeyx İbrahim Bərdəi. Divan, Bakı: Avrasiya Press, 2006, s. 109.

zehinlə təxəyyül edilən hər şeydən təcrid etmək deməkdir. İlahi vəhdət insan nitqində tovhid kəlməsi ilə büllurlaşır. Bütün kainat tovhidin şüursuz şahididir. Düşünən insandan tovhidin şüurlu şahidi olması tələb olunur. Bu zaman tovhid kəlməyi-şəhadətə yol tapır.

"La ilahə illəllah" rədifli şeirində şair tovhidi yalnız eşq ilə dərk etməyin mümkün olduğunu bəyan edir.

Eşq ilə zikr edünüz, zövq edübən yazunuz,
Şövq ilə dildən degüz: "La ilahə illəllah"
Hər kim özündən keçər, bənlik olandan qaçar,
Zikr deyəndə qaçər: "La ilahə illəllah".[1]

Vahidə - zirvəyə çatmaq, məcaz və kəsrətdən qurtarmaq sonsuz əzab və iztirabla başa gəlir. Bu iztirabalrın bitməsi "həyatın sonu" deməkdir. Şairin vəhdətə olan eşqi o qədər güclüdür ki, onun ömrü mənəvi yüksəliş və saflıq üçün sınaq meydanı olan bu dünyada artıq bütün arifanə gücünü səfərbər edərək, kəsrətdən həqiqətə can ataraq "ölü", əslində isə əbədiliyə gedən bir ömürdür. Ölmədən ölərək bu birliyi dərk edən kəs zahiri cəhətdən ölü olsa da, batini cəhətdən dirilərdən diridir, kamildir, ölümsüzlük astanasındadır. Bu əkslik, onun zatında olan bütün ziddiyyətli qütblər məhz insanı, dünyanı, yaradılışı inkişafa, tərəqqiyə, təkamülə, mənəvi paklığa – bir sözlə, zirvəyə aparır, vəhdətə qovuşdurur.

Birdir iki söz vəhdətə nisbət,
Bu Gülşəniyi Həqq, "qul huvəllah".[2]

Vəhdətə çatmağa çalışan şair Qurani-Kərimin "İxlas" surəsinin birinci ayəsinə müraciət etmişdir. Hansı ki, bu ayə Məhəmməd peyğəmbərdən (s.ə.s.) rəvayət olunan mötəbər hədisə görə, Quranın dörddə birinə bərabərdir. "De, O Allah birdir (heç bir şəriki yoxdur)" (İxlas, 1). İxlas tovhid inancının özüdür, insanı yalnız təqvaya aparır. Birlik məqamına gedən yol qəlbin ixlasından keçir.

Gülşəni poeziyasında Qurani-Kərimin anası sayılan "Fatihə" surəsinə də çox müraciət edilmişdir. Şair ən şox bu surənin "Bizi doğru yola yönəlt" (sirati-müstəqim) (Fatihə, 6) ayəsini iqtibas etmişdir.

Sirati-müstəqimi qoyub ol gün
Edüpdür rahi-təfriqdən səbili.[3]

"Bizi doğru yola yönəlt" duası Rəbbin qullarına bir irşadıdır. "Doğru yol" isə İslamdır. Yaradanla yaradılan, Allah və qul, ağıl və vəhy, hürriyyət

---

[1] Gülşəni. Şeyx İbrahim Bərdəi. Divan, Bakı: Avrasiya Press, 2006, s. 352.
[2] Yenə orada, s. 350.
[3] Yenə orada, s. 380.

və cəbr, haqsızlıq və ibadət, yaxşı və pis... qütblərinin İslamda vəhdət yolu göstərilmişdir. Bu yol Allahın nemətlərinə, rizasına, cənnətinə aparan yoldur, Ona qovuşma yoludur, vəhdət və birlik, hidayət yoludur. Hidayət Allahın bizə bəxş etdiyi lütfdür, qəlblərdən pərdəni qaldırmaq, həqiqətləri göstərməkdir, verdikcə çoxalan nemətdir.

Gülşəni istər ilahi eşq etiraflarında, istərsə sufiyə verdiyi öyüd-nəsihətlərdə, istərsə dövrün ictimai-siyasi mənzərəsinə nəzər saldıqda Quran, hədis və qissələrdən istifadə etməklə, beytlərinin məntiqi dərinliyini, poetik obrazlılığını, hikmətini daha da artırır.

Şair Adəm, Məhəmməd (s.ə.s.), Məsiha, Yusif, Musa, Xızır, Süleyman, Nuh, İlyas, Əyyub, Yunus peyğəmbərlərlə bağlı qissələrdən bol-bol bəhrələnmiş, öz əsərlərində dini mənbələrdən istifadə edərək müxtəlif obrazlar yaratmışdır. Klassik ədəbiyyatda iqtibas üçün istifadə edilən ayə və hədislər öz zənginliyi ilə dini-təsəvvüfi ədəbiyyatımıza dərin məzmun gətirmişdir.

Gülşəni yaradcılığında nümayişkaranə, deklomativ ruh da ilahi kəlamdan, sərt qanunlar olan Qurandan, islami dəyərlərdən bəhrələnməkdən irəli gəlir. Bütün insanları bu yola dəvət onun yaradıcılıq manifestidir. Gülşəni bu kəlamlara təlmih və iqtibas yolu ilə yaradıcılığındakı bədii ifadə vasitələrinin təsir gücünü daha da artrmış, bu kəlamların didaktik ruhundan məharətlə istifadə etməklə güclü şeiriyyət yaratmışdır. Onun işlətdiyi kəlamlar Azərbaycan ədəbi dilinin, bədii sözün inkişafına böyük təsir göstərmişdir.

**İkinci fəslin "İlahi eşq"** adlanan üçüncü bölməsində Gülşəni irsi yalnız ədəbi mahiyyəti ilə deyil, zəngin ilahi dərinliyi ilə tanınan mədəniyyət xəzinəsi kimi qiymətləndirilmişdir.

Ş.İ.Gülşəni təriqət ədəbiyyatının nümayəndəsi olduğundan onun yaradıcılığı bədii-fəlsəfi düşüncələrlə dolu təsəvvüf ideyalarından qidalanmışdır. Bu ideyalar Gülşəni humanizminin elə bir kulminasiya nöqtəsidir ki, insan qəlbinin dərinliklərinə varan, onun arzu və ümidlərinə tərcümanlıq edən yol ancaq oradan keçir. Gülşəninin söz incisi təsəvvüfün nüvəsini təşkil edən ilahi eşq anlamı üzərində köklənmişdir.

Şairin təbirincə, eşq bir nurdur ki, onsuz insan qaranlıqda qalar. Eşq bütün əxlaqi fəzilətlərin mücərrəd məcmusudur. Yalnız eşq insanı mənəvi təmizlənməyə, ucalığa aparar. Qulun Allaha duyduğu sevgi nə qədər güclü olursa-olsun, aşiq yenə də Onu yetərincə və layiq olduğu ölçüdə sevə bilmir. "İman edənlər daha şiddətlə sevərlər" (Bəqərə, 165).

Gülşəni irfan əhli olduğundan əql və eşq, eşq və mərifət, aqil və aşiq, aqil və arif, ruh və bədən, vəhdət və kəsrət, məkan və zaman, fəna və bəqa, qal və hal əhli, nəfs, cünun, məqam, mərifət, həqiqət və s. məsələlərə, hərf və rəqəmlərin mistikasına xüsusi diqqət yetirmişdir. "Eşq ilə əql əhli seçilür amm ilə xas", "Eşqi bil əlmas nisbət çövhərün qiymətlüsin, Nispət etmə əqli ona, bil məadindən xilas", "Görübən əql ilə ammun gecə-gündüz təşvişin", "Eşqə verə könülni ol qorxudan cümlə xəvas"[1] beytlərindən bir daha aydın olur ki, şair mərifəti, eşqin məqamını zahiri elmdən üstün tutmuşdur.

Bəli dedüm bəladan dərdi-eşqə,
O əhdümi bəladan sayamazam.
Verüb can olmadan eşqün şəhidi,
Bəladən qanlu kəfən geyəməzəm .[2]

Şairin fikrincə, eşqdən gələn bəla bayramdır. Mütləq Sevgilidən gələn dərd şərəfdir. Bütün bəlalara "bəli" deyən aşiq bunu bəla saymır. Bu beytdə "bəli" sözü "Qalu-Bəla" ayəsinə işarədir. "Mən sizin Rəbbiniz deyiləmmi?" – soruşmuş, onlar da "Bəli, Rəbbimizsən", - deyə cavab vermişlər" (əl-Əraf, 172).

Gülşəninin bütün yaradıcılığı "Soraram bən nəyəm bana, nədir bənlik olan sana", "Nədir həqiqət andan, bildünsə ver cəvabum"[3] sualına cavab axtarışı üzərində qurulmuşdur. Şairin lirik qəhrəmanı da adi insan deyil. O, zahirən və batinən gözəl eşq və elm əhli, itfan və mərifət sahibidir. Məhz buna görə də o, misilsiz Məşuqun qarşısında miskinliyini dərk edir və bundan fəxarətlənir. Bu eşqdən gələn hüzn isə duyğu və düşüncənin, mənəvi təkamülün qaynağıdır.

Həqiqi aşiq əsrarəngiz varlıqdan sonra gerçək "Eşq nədir, məşuq nədir?"- sualına cavab tapmşdır. Bir sevgi fövqündə hər şeyi sevməyə başlamışdır. Eşqi bir yerdə deyil, bütün zaman və məkanlarda tapmışdır. Məşuqun böyüklüyünə görə mənəvi aşiqin yolu və iztirabları çox böyükdür. Aşiqin Məşuqa yönəlişi onun özündən özünə yönəlişidir. Məşuqun dərki özünün dərkidir. "Din, yola düş, ey könül, eşq elinə gedəlim",[4] – deyən şair bundan başqa yol tanımır və bu yolun "Susuz girib ol yola aclığı zar edəlim", - deyərək çətinliyini dərk edir. Çəkdiyi acıların da "Dərd imiş

[1] Gülşəni. Şeyx İbrahim Bərdəi. Divan, Bakı: Avrasiya Press, 2006, s. 155.
[2] Yenə orada, s. 216.
[3] Yenə orada, s. 245.
[4] Yenə orada, s. 254.

dərman bana eşqün dəvası, ey təbib.. çün eşqi dərman bulmuşam”,[1] - deyərək əlacını tapdığını bəyan edir.

Həyatı boyu həqiqət axtarışında olan Gülşəni: “Ey Həqqin vəhdinə məzhər, lövhi-Quran bulmuşam”, “Xızrvər andan anunçün abi-heyvan bulmuşam”, “Yarın olan cənnət ilə hürü qılman bulmuşam”, “Gülşəni bixar olan güldən gülüstan bulmuşam”, “Qüdsi Kəbə ol nəzərdən pəs rəhman bulmuşam”, “Qiluban bayramü canum ana qurban bulmuşam”, “Vəchümün sevgisini canumə canan bulmuşam”, - deyərək axtardığını tapmış elan edir.

“Nə dəliyəm, nə usluyam, eşidilmiş degil inan”, “...dəlilik əql ilə xudur”, “Cəhanda uslu dəliyəm”, - deyən şair - ilahi aşiq mənəvi inkişafın daha yüksək mərhələsinə qədəm qoymuş, əqlin hökmündən qurtulmuşdur. Əql özü eşq qarşısında gücsüzlüyünü görərək təslim olur. Eşq isə əqldən fərqli olaraq insanı mənəvi yüksəkliyə qaldıraraq, mərifət qazanmağa, kamala çatmağa yol göstərir, mənəvi meraca yüksəldir və aşiqin eşq sirri gizli qalır.

Eşq xətrinə bəşərilikdən uzaqlaşmaq, dünya gözəlliklərindən üz döndərmək üçün onları viranə qılan aşiq yalnız eşq xəzinəsini – aşiqin sirrini gizlətmək üçün imarətlər tikən memardır. Bu imarət aşiqin qəlbidir – mənəvi evidir. Qəlb sirlər məkanıdır, eyni zamanda sirləri aşkar edən məkandır. Eşqini sirli saxlayan aşiq üçün məşuq da sirlidir: dərkolunmazdır, idraklara sığmazdır. Onun sirrini heç kəs faş eyləyə bilməz. Sirli eşqdən sirli məşuqa doğru yol vəhdət məqamında aydınlaşar, agah olar.

Şairin fikrincə, nəfs paklaşmağa, vəhdətə doğru meyl edən qəlbi geriyə - kəsrətə sürükləyir, eşq atəşini söndürməyə çalışır. Demək, əsl insan düşməni çölündə deyil, içində görməyə və artıq ən böyük savaşı burada etməyə başlar, nəfsə qarşı cihad edər, özünü tapar, mərifətə qovuşar, irfan əhli – arif olar, beş duyğusunun arzuları ilə deyil, kamil arzularla yaşayar, dünya və axirəti özündə bir araya gətirib ikiliyi bir edər, həqiqət qapısını açan kamil insan olar. “Yetmiş iki millətin bir dili var söylərəm”,[2] “Yetmiş iki millətə bir imiş, degil”,[3] - deyərək insanları millət, irq, təriqət, din, sevgi birliyinə çağırar. Mövlananın dili ilə desək: “Kim olursansa, ol, gəl, birliyə gəl”, - deyər. Gülşəni poeziyasının məğzi, canı bunlardır. Onun bütün əsərləri bu bədii-fəlsəfi, dini-əxlaqi ideyalar üzərində qurulmuş kamil insan modelidir. Gülşəninin yaradıcılığında var olmanın və ya Mütləq varlığa yetişmənin təməlində, məhvərində eşq durur. Ümumiyyətlə, eşq təsəvvüfün

---

[1] Yenə orada, s. 244.
[2] Gülşəni. Şeyx İbrahim Bərdəi. Divan, Bakı: Avrasiya Press, 2006, s. 236.
[3] Yenə orada, s. 182.

ən önəmli tərəfi olmuş və ədəbiyyatda da ən çox bu tərəfi ilə işlənmişdir. Bu baxımdan estetik duyğu ön plana çəkilmişdir. Gülşəni eşqi zaman və məkandan kənar əsrarəngiz, fani olmayan əbədi aləmə vararaq tapmışdır. Bu zaman "Həqiqi eşq nədir?", "Aşiq və məşuq kimdir?" sualına cavab taparaq, özü də aşiq olmuşdur.

"Həqayiq mədəninin kamıdır eşq, Görərsən cövhərün dükkanıdır eşq", "Canlar canıdır eşq", "Cahanda dövr ilə sultandır eşq", "Məhəbbət şeyxinin tufanıdır eşq", "Əhli yəqin bürhanıdır eşq",[1] "Bəni hər dəmdə nedim öldürür eşq", "Bəha can ver, - deyübən öldürür eşq",[2] "Həqiqət mülkünün əlasıdır eşq", "Münəvvər aləmin tuğrasıdır eşq",[3] "Əbədsiz bicəhət binasıdır eşq", "Məvəddət nəqtünün lövlasıdır eşq", "Kəlami-nəqdinin əbnasidir eşq", "Yedi dərya məhəbbətdir, yəni eşq", "Həyati-cavidandır həmdəmi- eşq",[4] - deyərək fəlsəfi eşq dastanı yaratmışdır.

"Əvhi lə xovfun əleyhim" bil bəşarə sirrini

"Kəövliyaullah"-həqdən əmr ilə buyrulmuşam,[5] - deyən şair özünün bu məqamını dərk etmiş, seçilmiş bəndə olduğunu, imani-şərifin hər kəsə nəsib olmadığını və onun ilahi nemət kimi verildiyini qeyd etmişdir. "Diləyən mərifət-sirrin, eşitsin Gülşəni sözün"[6] misrasında şairin mərifət məqamına çatdığı bir daha bəyan edilir.

"Oqıyan "Qəd bəy kun nurü min Allahi" bilür"[7] misrası bir daha sübut edir ki, onun poeziyası insanlara qaynağı görünməyən Allahın nuru ilə baxaraq $360^0$ ətrafı: həqiqəti, özünü, nəsnələrin mahiyyətini görməyi, nur üstünə nur olmağı, şahid olmağı, mükəmməllik qazanmağı təlqin edir.

Gülşəninin sənətkarlıq aləmində çoxsaylı mövzu və motivlərdən bəhrələnmənin şahidi oluruq. Bu ənənəvi mövzular müxtəlif çalar kəsb edərək yeni həyat qazanmışdır. Gülşəni yaradıcılığı insana böyük önəm verən, Azərbaycan və dünya bədii mədəniyyət zəminində formalaşan humanist örnəkdir. Əsərlərinin nəfis hissi boyaları onun dərin elmi-təfəkküri əsasları ilə birləşib oxucuya ikiqat zövq verir, onu düşündürüb zənginləşdirir. Fəlsəfi-elmi axtarışları ilə nail olduğu tapıntılar cəmiyyətin mənəvi-estetik tərbiyəsinə xidmət edir.

---

1 Gülşəni. Şeyx İbrahim Bərdəi. Divan, Bakı: Avrasiya Press, 2006, s. 162.
2 Yenə orada, s. 166.
3 Yenə orada, s. 168.
4 Yenə orada, s. 171.
5 Yenə orada, s. 234.
6 Yenə orada, s. 281.
7 Yenə orada, s. 360.

Beləliklə, Gülşəni sırf təsəvvüf şairi olmaqla Nəsimidən sonra Azərbaycan ədəbiyyatınn ictimai-fəlsəfi fikir tarixində önəmli mövqe qazanmış, mərifətə, həqiqətə və kamilliyə yönəlmiş irfan əhlidir.

**Tədqiqat işinin "Kişvəri poeziyasının əsas mövzu dairəsi"** adlanan üçüncü fəsli üç bölmədən ibarətdir.

**"Kişvəri poeziyasının ideya-estetik aspektləri"** adlanan birinci bölmədə indiyə qədər təsəvvüf ideyalarından uzaq hesab edilən Kişvəri poeziyasında ilk dəfə təsəvvüf motivləri araşdırılmışdır.

İstər yazı və üslub, istər ədəbi-texniki priyom və dil zənginliyi, istər mövzu və motiv rəngarəngliyi, istər ideya-estetik mülahizələr, istərsə də dini-fəlsəfi ideyalar baxımından zəngin olan XV əsr klassiklərinə aid xüsusiyyətlər Kişvəri yaradıcılığı üçün də səciyyəvidir. Bu dövrdə olan sənətkarların əksəriyyəti ən çox dini-fəlsəfi, təsəvvüfi ideyaları tərənnüm edirdilərsə, Kişvəri bəşəri, ictimai-sosial görüşləri, xalq üslubuna yaxınlığı ilə onlardan seçilirdi. Sözsüz ki, Kişvəri poeziyası dini-fəlsəfi ideyalardan kənar deyil. Onun poeziyası bu humanizm mənbəyindən təcrid oluna bilməzdi və şairin şeirlərində bunun tez-tez şahidi oluruq. Lakin Kişvəri bəzən açıq, bəzən də lirik-romantik, irfani örtük arxasında, əsasən, bəşəri hisləri təcəssüm etdirirdi. Fəlsəfi humanizm, xəlqilik, ictimai-sosial və demokratik ideyalar onun yaradıcılığının əsas ideya-estetik xüsusiyyətləridir.

Kişvərinin yaradıcılığı ifadə tərzi və üslub baxımından onun türk xalqları poeziyası ilə yaxınlığndan, klassik Şərq ənənələrinə bağlılığndan xəbər verir.

Kişvəri lirikasının ikili mahiyyətini nəzərdən qaçırmaq olmaz. O, dövrün ictlmai-tarixi, fəlsəfi-estetik və əxlaqi-etik gerçəkliklərindən çıxış etmişdir. Bu baxımdam şairin poeziyasında sufi-təsəvvüf görüşləri təkzib etmək qeyri-mümkündür. Kişvəri poeziyası Gülşəni irsi kimi tam təriqət ədəbiyyatı sayılmasa da, bu təsir onun yaradıcılığında özünü açıq-aydın göstərir. Onun bəzi şeirləri sırf təsəvvüf ideyalarına, bəziləri də bu ideyaların fonunda bəşəri duyğulara əsaslanır. Dünyanın həm maddi-fiziki, həm də mənəvi-ruhi gözəlliklərini Allah yaratdığı üçün Kişvəri şeirlərində oradakı pərdələr arasından Allah nuru görünür.

Mən kim, ərirəm yüzün görcək nə əcəbdir,
Kim gördü ki, bir yerdə ola ataş ilə mum.[1]

Bu beyt sırf dini məzmun daşıyaraq, Qurani-Kərimin əl-Əraf surəsinin 143-cü ayəsinə əsaslanır. "...(Musa): Ey Rəbbim! Üzünü mənə

---

[1] Kişvəri. Əsərləri. Bakı: Şərq və Qərb, 2004, s. 66.

göstər. Sənə baxım!"- dedi. Allah: "Sən Məni görə bilməzsən. Lakin dağa bax. Əgər o, yerində dura bilsə, sən də Məni görə bilərsən!" – buyurdu. Rəbbi dağa təcəlli etdikdə onu parça-parça etdi. Musa da bayılıb düşdü. Ayılandan sonra isə "Sən paksan, müqəddəssən! Sənə tövbə etdim. Mən iman gətirənlərdən birincisiyəm!"- dedi" (əl-Əraf, 143)

Hicrində artdı möhnətim, ey Kişvəri, gör vəhdətim,
Dəşti-fənadır xəlvətim, kuyi-məlamət məskənim .[1]
Aşiq oldur kim, əgər düşsə fəna dəryasına,
Kişvəri tək bilməyə meyli-kənar etmək nolur.[2]

Sırf təsəvvüf ideyalarına əsaslanan bu beytlərdə vüsal həsrəti ilə, vəhdət məqamının yanğısı ilə yaşayan aşiq xəlvət yolunu tutur. Buna nail olmayan aşiq özünü məzəmmət edir. Təsəvvüfə görə, fəna yolu aşiqi vüsala yetişdirirsə də, hicran dərdini azaldır. Digər beytində: "Kişvəri, imdi fəna yolunu gözət"[3] – deyən şair çıxış yolunu yalnız bunda görür.

Kişvəri bütün aşıqanə qəzəllərində istər dünyəvi, istərsə də irfani məhəbbətdən bəhs edərkən ölümü çıxış yolu, vüsal məqamı kimi ərz etmişdir. Onun lirik qəhrəmanı öz arzu və istəkləri, ideyaları üçün ölümü asanlıqla qəbul edir. Özünüdərk məqamında can, İlkinə qovuşaraq vəhdətə çatıb yenidən dirilir. Əvvəlki dirilikdən fərqli olaraq kamil olur.

İç məhəbbət camini, ey zahid ki, bolmaz dəstgir,
Həşr divanında şol təsbihi-övrədin bilə.[4]

Kişvəri bu beytdə axirət günündə zahidə yalnız məhəbbətin köməyə çatacağını qeyd edir. Bu gündə, hesabat məqamında yalnız məhəbbət camını içən zahid qurtula bilər. Bir şərtlə ki, bütün ibadət və duaları da məhəbbətdən yoğrulsun.

Kişvərinin bədii-estetik, fəlsəfi dünyagörüşü dövrün fəlsəfi-mədəni gerçəkliklərini özündə əks etdirir və onun həyata olan münasibətində, həqiqət axtarışlarında təzahür edir. Onun zövq aləmi, keçirdiyi iztirablar mənəvi axtarışları əsasında formalaşmışdır. Sufi-hürufi ideyalar bu baxımdan onun yaradıcılığından kənarda qala bilməzdi. Orta əsr ədəbiyyatında aşiqin estetik-psixoloji keyfiyyətləri, əsasən, rəmzlərlə verilirdi. Ezoterik poeziyada üz, saç, zülf, kakil, xətti-səba və s. ən çox istifadə olunan simvolik istilahlardan Kişvəri də yetərincə faydalanmışdır.

Kişvəri iki cahan nəqdün verür vəslin içün.[1]

---

[1] Kişvəri. Əsərləri. Bakı: Şərq və Qərb, 2004, s. 63.
[2] Yenə orada, s. 33.
[3] Yenə orada, s. 40.
[4] Kişvəri. Türk divanı. Bakı: Nurlan, 2010, s. 39.

İki mehman bir evdə çün sığışmaz,
Mənim canım gedər, çün sən gəlürsən.[2]

İki cahan, ümumiyyətlə, ikilikdən, əksliklərdən (fəna-bəqa, hicran-vüsal, yar-əğyar, əql-divanəlik, zülmət və nur, cəhd və mərifət, zöhd və eşq, bəndə-sultan, gəda-sultan[3] qurtarıb vahidə qovuşması uğrunda çarpışması, məşuqəyə çatmaq anında canın cismə sığa bilməməsi, mənşəyinə qayıtmaq cəhdi, bunun üçün aşiqin hər çətinliyə qatlaşmağa hazır olması beytdə ifadəsini tapmışdır.

Kişvəri eşq-məhəbbət şairidir. XV əsr ədəbiyyatının mürəkkəb tarixi-ədəbi zəmini içərisində onun yaradıcılığının ideya-estetik xüsusiyyətləri tam təsəvvüfi-irfani olmasa da, kifayət qədər bu dünyagörüş ilə sıx əlaqədardır. Onun lirikasında təsəvvüf meyilləri, mistik motivlər bir tərəfdən dövrün aparıcı fəlsəfi-dini ideyalarından yan keçə bilməməsi, bu axının axarında getməsi ilə əlaqədardırsa, digər tərəfdən ədalətsizliyin hökm sürdüyü həyatdan, şəxsi həyatdakı məhdudiyyətlərdən irəli gəlirdi. Kişvərinin şair ruhu həmişə maddi aləmdən rahatlıq tapa bilməmiş, bəzən o, bu rahatlığı ruhi aləmdə axtarmağa çalışmışdır. Kişvəri yaradıcılığı dünyəvi və ilahi məhəbbət arasındakı əlaqələri bədii-simvolik rəmzlərlə ifadə etmişdir. Çünki istər dünyəvi gerçəklikdən və istər mənəvi-ruhi həyatdan alınan zövq eşqlə reallaşır. Onun poeziyasının ideya-məzmun məqsədi, əsasən, dünya və əbədilik arasında olan insan duyğularının keçirdiyi sarsıntıları və təkamül yolunu göstərməkdir. Kişvəri yaradıcılığında ilahi eşqlə həyati-dünyəvi eşq arasında hüdud tapmaq çox zaman çətinlik törədir.

**Üçüncü fəslin ikinci bölməsi "Dünyəvi görüşlər"** adlanır.

N.Kişvəri XV əsrdə klassik poeziyanı xəlqiləşmə, sadələşmə, aydın ana dilində yazılma baxımından yeniləşdirən, yeni tipli lirik qəhrəman yaratmaq istedadına malik olan, təsəvvüf estetikası ilə dünyəviliyi qovuşduran, realizmə meyillənən, ictimai-sosial təfəkkürlü poeziyanı inkişaf etdirən novator şairdir.

Sənət və dünyagörüşündə olan milli koloritləri klassik poeziya çərçivəsinə salan şeirlərində Kişvərinin qəlb həyəcanları son dərəcə parlaq və səmimidir. Açıqfikirlilik, sadəlik, dərinlik və həyəcan onun lirikasının başlıca xüsusiyyətlərindəndir. Kişvəri poeziyasını öz gerçəkliyi içində anlamaq lazımdır. Bu poeziya bəşəriyyətin bütün kirlərini eşq atəşilə

---

[1] Kişvəri. Əsərləri. Bakı: Şərq və Qərb, 2004, s. 59.
[2] Yenə orada, s. 86.
[3] Cümşüdoğlu N. Füzulinin sənət və mərifət dünyası. Bakı-Tehran: 1997, s. 382.

təmizləmək cəhdinin, saf mənəvi aləmin parlaq ifadəsidir. İstər fəlsəfi örtüyə bürünmüş şəkildə ifadə edilən, istər səmimi real insani duyğularla yeni insan idealını yaradan Kişvəri irsinin əsas qayəsi insana məhəbbətdir.

Şairin təbliğ etdiyi mənəvi zövqlər ezoterik estetika ilə əlvanlaşsa da, çox zaman maddi əsasa, obyektiv gerçəkliyin real hadisələrinə, yaşadığımız dünyanın gözəlliklərinə söykənir. Kişvəri poeziyası yüksək sənətkarlığı, dərin emosionallığı, səmimiliyi və fikirlərinin müasirliyi ilə fərqlənən, ürəkləri fəth edən, bəşəri-fəlsəfi məna daşıyan bir poeziyadır. Dünyəvilik, gerçəklik, xəlqilik sənətkarın həm məfkurə tərzində, həm də bədii dil və üslubunda, duyum anlayışlarında aydın şəkildə özünü göstərir.

Kişvəri poeziyası ilk öncə azad və açıqfikirli olması, aydınlığı, sadəliyi və xalq dilinə yaxınlığı ilə seçilir. Kişvəridə Nəsimi üsyankarlığı və cəsarəti, Füzuli müdrikliyi, Vidadı kədəri, Vaqif realizmi var. Kişvəri dünyaya klassik obrazların standart çərçivəsindən baxmır... Kişvəri sözlə ustalıqla davranır, çevik dil-üslub nümunəsi verir, onun təqdimində qəzəl standartı Azərbaycan dilinin sintaktik harmoniyasını, demək olar ki, pozmur, milli ahəngdən məhrum etmir. ...Klassik şeir janrlarında folklor potensialı tapır və həmin potensialı bütün gücü ilə reallaşdırmağa çalışır (32, 31).[1]

Eşq müşkülü, iztirabı klassik poeziyanın leytmotivini təşkil edir. Lakin Kişvəri qədər bu acını, bu acıdan gələn həzzi ürəyəyatan təsvir edən olmamışdır. Aşiqin eşq əlindən divanə olması o qədər şirin verilir ki, sanki bu gün yazılmışdır. Şairin şeirlərində Şəhriyar dilinin sadəliyi, canlılığı duyulur.

"Mənimlən ta yaman oldun, məni öldürdü qayğular",[2] "Kişvəri yüzün görüb can tabşırırsa nə əcəb",[3] "Dərdim qatudur bu gecə, ey bəxt, mədəd qıl",[4] "Dutsa yulduz gög yüzin xurşidi-taban bəllüdür",[5] "Günəş gögçəkdürür derlər, bəli gögçəkdürür, əmma, Sənün gögçəkligin yanında ol naçarı gögçəkdür",[6] "Məni görgəc təbibi-eşq dedi, Munun ölməkdən özgə yox dəvası",[7] "Mənim bir yarım var kim, ləbü goftari gögcəkdür, Saçı sünbül, gözü nərgis, güli-rüxsari gögçəkdür",[8] "Mana der xəlq kimə yarın

---

[1] Cəfərov N. Seçilmiş əsərləri. 5 cilddə, II cild, Bakı: Elm, 2007, s. 31.
[2] Kişvəri. Əsərləri. Bakı: Şərq və Qərb, 2004, s. 35.
[3] Yenə orada, s. 32.
[4] Yenə orada, s. 32.
[5] Yenə orada, s. 28.
[6] Yenə orada, s. 25.
[7] Yenə orada, s. 122.
[8] Yenə orada, s. 25.

əcəb bimehrü bədxudur, Özi bilür əgər bimehrü bədxu, bari gögçəkdür”,[1] “Derlər ki, sana yardur, ey Kişvəri, şux ol, Eylə dəgül axı, nə əcayib yaradıbdur”,[2] “Qonşular sanurlar evdə kimsəm ölmüş, bəs ki, mən, Ökür-ökür ağlaram hər gecə vaya-vay ilən”[3] və s. sadə xalq dilindən alınmış ifadələrə bədii cəhətdən don geydirərək, daha incə və rəngarəng etmiş, əsrlər boyu itməyən maddi-dünyəvi təravət bəxş etmişdir.

Milli bədii-poetik ənənələrdən faydalanan Kişvəri poeziyasının xalq dili, məhəbbətin tərənnümündəki sadəlik, munislik onun iç dünyasının təcəssümü olan lirikasını xəlqiliyə, maddi-bəşəri duyğulara, dünyəviliyə yaxnlaşdırır. Bu lirika səmimi olduğu qədər də dərindir, möhtəşəmdir, ürəyəyatandır, maddi və ruhani aləmlə harmoniyadadır, məzmunca rəngarəng, formaca müxtəlifdir. Kişvəri yaradcılığında insan sevgisinin tərənnümü bəzən nikbin əhvali-ruhiyyənin ifadəsi və aşiqin heyranlığında, bəzən də giley-güzarın ifadəsi və gözəlin romantik vəsfində öz bədii həllini tapmışdır.

Kişvəri lirikası bədii-estetik intuisiya, ana dilinin poetikasına, üslubi imkanlarına dərindən bələd olmaq, ictimai-siyasi, mədəni şəraiti duymaq xüsusiyyətlərinə malikdir. Bu lirikanın səmimiliyi onun ruhən güclü olmasından, daxili zənginliyindən yaranmış və Kişvəri humanizminin qarantına çevrilmişdir.

Gözəlliyi təsvir etməyə, onu maddi gerçəklikdə görməyə, insan camalını ən kamil gözəllik kimi qiymətləndirməyə Kişvəri realist mövqedən yanaşır. Şair lirik qəhrəmanın düyğülarını, vəfadarlığını poetik dilin zənginliyi ilə qələmə alır.

Səndən özgə kimsəyə könlüm əgər mehr eyləyə,
Vallah anı diş ilə pərkənd-pərkənd eyləyim.[4]

Burada aşiqin dərin və munis hisləri, sevgilisinə sadiqliyi əks olunmuşdur. Güclü poetik məntiq, hiss və duyğuları əsaslandırmaq şeiri daha da çox sevdirir.

Qonan şəbnəm dəgül gül yarpağına bağara, bil kim,
Güli-ruyun görüb yüzinə xiclətdən qonan tərdür.[5]

---

[1] Yenə orada, s. 25.
[2] Kişvəri. Əsərləri. Bakı: Şərq və Qərb, 2004, s. 24.
[3] Yenə orada, s. 92.
[4] Yenə orada, s. 75.
[5] Yenə orada, s. 28.

Eynilə bu beytdə də lirik-psixoloji axar son dərəcə güclüdür. Kişvəri ruhən və mənən poetikdir. Bu poeziyada rayihəli, ətirli, rövnəq dünya poetik obrazlar dünyasına çevrilir. Bütün bu obrazlar aləmi onun poetik "Mən"ində özünə məskən salır. Aşiqin məşuqə qarşısında utancılığı, həyası isə incə və zərif boyalarla verilərək, gül yarpağından düşən şəbnəm kimi xəcalətdən yaranan tərə bənzədilir.

Kişvərinin sevgi duyğuları yaşanılmış hislərin ifadəsi olub təbii və cəlbedicidir. Şairə görə, yaralı qəlbləri səsləndirən, həyata qaytaran eşqdir.

İncə, zərif zövqə malik olan Kişvəri, klassik poeziyanı nadir ifadə vasitələri, sintaktik fiqurlarından istifadə edərək zənginləşdirmişdir. Kişvərinin poetik üslub xüsusiyyətlərindən biri də bədii suallar vasitəsilə onu göynədən mətləblərə cavab axtarmaq üçün məşuqəyə müraciət etməsidir. Bu tip şeirlərində aşiq məşuqəyə fəqircəsinə cavabını gözləmədiyi suallar verir.

Şairin dünyası geniş, fikirli, qayğılı və dalğındır, sızıltılı kədərdən, romantik bir məsumluqdan başlayan, itkilərin, aldanışların, yalan və riyaların, qəddarlıq və rəhmsizliklərin gətirdiyi təəssüflə, etirazla əhatə olunan bir dünyadır. Həm zövqlü və rəngarəng, həm də mürəkkəb və ziddiyyətli dünyanın mənəvi-ruhi aləmin narahatlıqları  Kişvərinin bədii-fəlsəfi təxəyyülü ilə bədii-poetik lövhələrə çevrilir. Şairin lirik qəhrəmanı onun lirik "mən"i ilə eynidir. Bu lirika nə qədər nikbin olmağa çalışsa da, bəzən giziltili, bəzən nisgilli, dərdli duyğuların üzərində cəmləşmişdir. Bu duyğular çox vaxt etiraza, üsyana çevrilir. Kişvəri insan gözəlliyini, sevgini neqativ hallara qarşı qoyur. Kamil gözəllik nümunəsi olan məşuqə onun poeziyasının əsasını təşkil edir. Məşuqə bəzi hallarda amansız olsa da, bu, aşiqin dünyanı dərk etmək yolunda tərəddüdləri, axtarşları, mübarızəsi üçün bir imtahan, mayak rolunu oynayır. Bu gözəlliyin qarşısında dünyanı dərk etməyə çalışan, bu mübarizədə fəal mövqedə durmaq istəyən aşiq bəzən sarsılır, vəfasızlıqdan şikayətlənir, əzab çəkir, ancaq buna baxmayaraq, püxtələşir, dolğunlaşır - bir sözlə, kamilləşir.

Kişvəri lirikasında kədər, giley və şikayətlər arzu ilə həqiqət arasındakı ziddiyyətdən, eyni zamanda ictimai bərabərsizlikdən, dövrün ədalətsiz qanunlarından doğan bəşəri kədərdir. Bəlkə də, Kişvəriyə qədər heç bir şairdə kədər motivi bu qədər geniş, romantik-ekspressiv xarakter almamışdır. Kişvəri kədəri Füzuli kədərinin sələfidir.

Lakin Kişvəri poeziyasında kədər Füzulidəki qədər dərin və fəlsəfi deyil. Kişvəri kədəri Füzuli kədəri kimi ruhunun dərinliyindən deyil,

zamanın doğurduğu bədbin ovqatın təsirindən yaranırdı. Bu mənada Kişvəri kədəri dərin ictimai məzmun daşıyan Vidadi kədərinə daha yaxındır.

Şairin misralarındakı sızıltı, kədər dərin və böyük bir hissin ifadəsi kimi müqəddəs olub kövrək, həzin duyğuların poeziyasıdır. Bu nümunələr böyük məhəbbətin səsidir. Kişvəri öz poeziyasında insan duyğularının daxili potensialını aşkara çıxarmış, sevinc və kədərin sirrini dərk etdirmişdir. Kişvəri həqiqi məhəbbətin, əsl insan sevgisinin, bu sevgidən doğan təşəbbüskarlığın, insanpərvərliyin novatorcasına yaradıcısıdır.

Beləliklə, Kişvərinin məhəbbət lirikası çoxçalarlı, rəngarəng, bəzən də ziddiyyətlidir. Bəzən nikbin, bəzən bədbin elementlərlə qurulan bu məhəbbət salnaməsi bir amala – insana, onun mənən zənginləşməsinə xidmət edir. Onun şeirlərinin əsasında təkcə bədii xəyal, romantika deyil, həm də dərin təfəkkür və kamal dayanır. Poetik təxəyyül, yüksək idrak, fəlsəfi zəka sahibi olan Kişvəri həm təsəvvüfi, çox vaxt da dünyəvi ideyalara söykənərək məhəbbət lirikası yaradır.

**Üçüncü fəslin "İctimai motivlər"** adlanan üçüncü bölməsində dövrünün ab-havasına, insanlarının psixoloji aləminə, əxlaqına, siyasi-dini, ictimai görüşlərinə biganə qalmayan Kişvəri poeziyasının ictimai xarakteri təhlil edilmişdir.

Şəxsi kədərini ictimailəşdirərək, ona ictimai məzmun verməsi, onu bütün insanlığın kədəri, mənəvi iztirabları kimi təqdim etməsi Kişvəri poeziyasının başlıca xüsusiyyətlərindəndir. Onun əsərlərindəki kədər mühitin, dövrün ədalətsizliyindən doğan ictimai kədərdir.

İctimai-sosial motivlər şairin yaşadığı mühitin səciyyəsindən, həyati faktlarından irəli gəlir. Məlum mənbələrə görə, Kişvərinin həyatı o qədər də hamar olmamışdır. Saraydakı həyat tərzi, bir müddət saraydan uzaqlaşması, qürbətdə yaşaması, çətinliklərlə, maddi-mənəvi ehtiyaclarla qarşılaşması onda cəmiyyətdən narazılıq motivləri doğurmuş, poeziyasına ictimai kədər gətirmiş - bir sözlə, ictimai-sosial görüşlərini formalaşdırmışdır. "Nə yarımdan vəfa gördüm, nə xoşluğ ruzigarimdən",- deyən Kişvəri yaradıcılığının şikayətçi məzmunu zəmanənin xüsusiyyətləri: ictimai-tarixi və mədəni həyatı ilə şərtlənir.

Kişvəri yaradıcılığının dərin humanizmi, bədii təfəkkürü həyata, reallığa yönəltməsi, insanın canlı, təbii hiss və ehtiraslarını əks etdirməsi, sağlam insan şüurunu ictimai reallığın dərkinə səsləməsi, onu öz dövrü üçün fərqləndirən xüsusiyyətlərdəndir. Şair tək zəmanədən deyil, zəmanənin təsiri ilə mənəviyyatı korlanan dostların vəfasızlığından şıkayət edir. Dostlardan, doğmalardan vəfa, sədaqət, insanlıq görməyən lirik

qəhrəman küskünləşir, bədbinləşir. O, bunun səbəbini insanlığın xislətində axtarır, maddiyyatın, ehtirasın qulu olan insanı tənbeh edir.

Kişvəri şeirlərində dünyanın etibarsızlığından, amansızlığından gileylənir. Lakin bunu "tərki-dünyalıq" kimi qiymətləndirmək qətiyyən düzgün deyil. Kişvəri bu fikirləri ilə şeirlərinə ictimai məna verir və ictimai şəraiti nəzərdə tutur.

Kişvəri ictimai-sosial görüşlərini ən çox rübai və müxəmməslərində əks etdirmişdir. Bu müxəmməsində Kişvəri öz dərd-kədərinin zirvəsini yaratmışdır. Fələyi namehriban, taleyi cəhənnəm, yarı mehrsiz olan şairin dərdini sadalamağa dil yetməz. Şair mənəvi iztirablarından, hətta maddi vəziyyətindən şikayətlənir.

Bir xarəb olmuş evim var qış günündə badgir,
Nədərü, nə bamü nə divarü nə balavü zir,
Nə tənürü nə buxari, nə hisari nə həsir,
Sübhü şamümdür mənim "yövmən əbusən ğəmtərir",
Vay yüz min vay kim, ol yar məndən ayrılır,
Gər nəfəs çəksəm dəmi-ğərmindən odlar çağılır,
Göz yummaz bolsəm cahanda seyli-əşkim yayılır,
Başıma hər yan məlamət daşı yəğmur tək gəlir,
Xansı birin söyləyim, ah ancə dərdim var mənim.[1]

Bu müxəmməs Kişvərinin tərcümeyi-halı, həyat salnaməsidir. Burada ağrı-acılar görmüş, həyatdan usanmış şairin ürək naləsini eşidir, onun digər dərdləri ilə yanaşı qəriblik dərdinin şahidi oluuruq. Anadan olduğu doğma məkandan (Dəlməqanda və ya Qəzvində anadan olması mübahisəlidir) ayrılıb, Təbrizə gəlib orada bir müddət Sultan Yaqubun sarayında, Sultan Yaqub öləndən sonra isə saraydan uzaqlaşıb Təbrizin hansısa bir yerində guşənişin olması, onun qəriblik dərdini artırmşdı. Bu fakta digər şeirlərində də rast gəlinir.

"Xaqanidən sonra əsərlərində güclü etiraz doğuran ictimai-siyasi motivlərə geniş yer verən ikinci şair Kişvəridir", - desək, məncə, yanılmarıq. Bu etirazın kökləri nisbətən fərqli olsa da, mahiyyəti eynidir. Xaqaninin ictimai narazılığının kökləri daha dərin və dolaşıqdır.

Xaqanidə deklomativ, cəsarətli və mübariz ruh güclüdür. Kişvəridə isə bu mübarizliyi görmürük. O şikayət edir, inildəyir, zarıyır, amma bunun köklərini göstərmir, tənqid etmir - bir sözlə, passiv yanaşmaya keçir. Fərdi tələbatların narazılığından, iqtisadi-mədəni şəraitin istənilən səviyyədə olmamasından, məhəbbətdə nakamlıqdan, maddi ehtiyacdan doğan şikayət

[1] Kişvəri. Əsərləri. Bakı: Şərq və Qərb, 2004, s. 148.

ictimai-sosial məna qazanır. Göstərilən müxəmməs bu təlatümlərdə yaşamış şairin harayıdır. Kişvəri harayı, giley-güzarı üsyankarlıqdan deyil, bəlkə də, acizlikdən, mübarizə yolunu düzgün seçə bilməməkdən doğur. Bununla bərabər, Kişvəri şikayəti ağlın, təfəkkürün, idrakın, qavramanın şikayətidir.

Bəzi məqamlarda şairin saraylarla, hökmdarlarla bağlı etirazı qabarıq əks olunur. Belə faktlara az rast gəlinsə də, bu nümunələrdə azadlığın, gözəl yaşamağın ən dəyərli nemət olduğunu duyan şairin üsyankar etirazları əksini tapmışdır.

Şairin kədəri istəklərini real həyatda tapmayan, kasadlıq, məlamət və sıxıntı içində yaşayan insanların ictimai-xəlqi kədərinin ümumiləşmiş təcəssümüdür. Həssas və böyük ideallarla yaşayan, lakin ağır bir mühitə düşdüyünü görən insanın kədəridir.

Özünün əqli-idraki, mənəvi dəyərini, istedadını yüksək qiymətləndirən Kişvəri həqiqətlə barışmaq istəmir, taleyinin acı gərdişinə üsyan edir. Kişvəri sənətinin qüvvəsinə inanaraq, ideya-bədii təfəkkürünün qüdrətinə arxalanaraq gərdişi-dövranın, haqq-ədalətin düzələcəyinə, əsərlərinin əbədiyyətə qovuşacağına ümid edir. İnsan faktoru üçün narahat olan şair dövrünün ictimai-mənəvi kəsirlərini görür, mənəvi-əxlaqi maariflənmə yolu ilə insanı islaha çalışır, həyatın təzadlarını açmaq, çirkinlikləri üzərindən pərdəni qaldırmağa cəhd edərək, öz əxlaqi-estetik fikirlərini təlqin etməkdən çəkinmir.

"Kim, nəsihət birlə mən rüsvani adəm qılğasan"[1], - deyən şair öyüd-nəsihətin insan tərbiyəsində böyük rol oynadığına inanır. "Kami-hasil bolmaz irmiş xidməti-namərd ilən"[2] ifadəsində Kişvəri namərdlərə bel bağlamamağı, onlardan uzaq durmağı məsləhət görür.

Nəcib insani duyğuların tərənnümçüsü olan Kişvəri poeziyası öz zəmanəsinin əks-sədasıdır. İnsanpərvərlik devizi altında ərsəyə gələn Kişvəri yaradıcılığı insanlıq üçün böyük töhfədir. Kişvəri sənəti xalq dilindən, xalq təfəkküründən, milli etnik-mədəni mənbələrdən şölələnən məşəldir ki, bir çox dahilər bu məşəlin istisindən ilham mənbəyi almşdır.

Dissertasiyanın "**Nəticə"** hissəsində isə dissertasiyanın ayrı-ayrı fəsillərində irəli sürülən fikir və mülahizələr, elmi-nəzəri müddəalar ümumiləşdirilmişdir.

---

[1] Kişvəri. Əsərləri. Bakı: Şərq və Qərb, 2004, s. 93.

[2] Yenə orada, s. 94.

**Dissertasiyanın elmi müddəaları aşağıdakı elmi əsərlərdə öz əksini tapmışdır.**

1. Orta əsr Azərbaycan ədəbiyyatında təsəvvüf motivləri // Bakı Dövlət Universitetinin 90 illik yubileyinə həsr olunmuş "Azərbaycan filologiyasının aktual problemləri" adlı elmi-nəzəri konfransın materialları, Bakı, may 2009, s.42-46
2. XV əsr Azərbaycan poeziyasında Nizami motivləri // Bakı Dövlət Universitetinin 90 illik yubileyinə həsr olunmuş beynəlxalq elmi konfransın materialları (Humanitar elmlər), Bakı, 30-31 oktyabr, 2009, s. 193-195
3. XV əsr Azərbaycan poeziyasinda əski mifoloji motivlər // Dil və ədəbiyyat, Beynəlxalq elmi-nəzəri jurnal, Bakı, 2010, №1(72), s. 299-301
4. XV əsr Azərbaycan poeziyasında digər xalqların ədəbiyyatından götürülmüş motivlər // Bakı Universitetinin xəbərləri, humanitar elmlər seriyası, Bakı, 2010, №3, s.61-66
5. Ş.İ.Gülşəni poeziyasında ilahi məhəbbət // Dil və ədəbiyyat, Beynəlxalq elmi-nəzəri jurnal, Bakı, 2011, №3(79), s.232-235
6. XV əsr Azərbaycan ədəbiyyatında Quran və təsəvvüf motivləri // Kültür evreni, Türkiyə, Ankara, 2010, №2, s. 96-103
7. Kişvəri poeziyasında təsəvvüf motivləri // Bakı Universitetinin xəbərləri, humanitar elmlər seriyası, Bakı, 2011, №3, s.48-54
8. Божественная любовь в азербайджанской поэзии XV века // Молодежь и наука: реальность и будущее, Россия, 2011, том 1, s. 581-583
9. N.Kişvəri poeziyasında ictimai-sosial motivlər // AMEA, M.Füzuli adına Əlyazmalar İnstitutu, Filologiya məsələləri, Bakı: Elm və təhsil, 2012, №10, s. 517-522
10. Qəzəl XV əsr Azərbaycan poeziyasının əsas janrı kimi // Bakı Universitetinin xəbərləri, humanitar elmlər seriyası, Bakı, 2012, № 3, s. 34-39
11. Kişvəri poeziyasinda dünyəvi görüşlərin bədii ifadəsi // AMEA Nizami adına Ədəbiyyat İnstitutu, Ədəbiyyat məcmuəsi, Bakı, Proqres, 2012, XXIII cild, s. 126-133
12. Ш.И.Гюльшани и халветийийе // Ученые записи Таврийского национального Университета им.В.И.Вернадского, Украина, 2013, том 1, s. 370-376

**М.В.Сулейманова**

# ОСНОВНЫЕ МОТИВЫ В АЗЕРБАЙДЖАНСКОЙ ПОЭЗИИ XV ВЕКА (на основе творчества Гюльшани и Кишвари на родном языке)

## РЕЗЮМЕ

Диссертация состоит из «Введения», трех глав, «Заключения» и списка использованной литературы.

Во «Введении» обосновываются актуальность темы, научная новизна, теоретическая и практическая  значимость работы, даются сведении о целях, задачах, методах исследования, об апробации и структуре диссертации.

В первой главе «Историко-культурная ситуация и литературный процесс в XV в.", состоящей из двух разделов, определяются место и роль данного периода в истории азербайджанской литературы, анализируются его особенности и влияние на последующие периоды, отмечается широкое распространение и превалирование литературы на родном языке, прослеживаются развитие трехъязычной литературы, доминирование национального самоопределения в поисках тем, формирование азербайджанской эмигрантской литературы в Сирии, Средней Азии, Египте, Турции. Несмотря на влияние языка Наваи и чагатайского языка, слоговое стихосложение, в этот период преобладают стихотворный размер аруз и газель, религиозно-мистические идеи составляют идеологическую основу азербайджанской литературы. Эти особенности характеризуют азербайджанскую литературу XV в. При прослеживании литературного процесса систематизируются и анализируются в взаимосвязи основные мотивы и идейные источники поэзии данного периода.

Во второй главе «Основные мотивы в творчестве Ш.И.Гюльшани», состоящей из трех разделов, поэзия Гюльшани на родном языке, являющаяся художественным выражением его религиозно-философских воззрений, оценивается как сектантская и мистическая литература; его поэтические произведения рассматриваются с точки зрения эзотерического учения и мистического символизма. Определяется роль притч, мотивов и цитат из Корана как идейно-художественных источников.

В третьей главе «Тематика поэзии Н.Кишвари», состоящей из трех разделов, впервые проводится идейно-тематический и хужожественно-эстетический анализ поэзии Кищвари, прослеживается взаимоотношение мистических, религиозных и мирских идей, дается их объективная оценка. Кишвари характеризируется, прежде всего как светский поэт, творчество которого является гармонией мудрости, поэтической чувственности, наблюдений и таланта в художественно-эстетическом выражении мировоззрения. Близость поэзии,  Кищвари к народному языку послужила основой формирования азербайджанского литературного языка. Социальные мотивы в его поэзии, отражающие общечеловеческие ценности, заботу, отношения, рассматриваются как причина общественно-мировой скорби.

В «Заключении» обобщаются основные результаты и выводы исследования.

**M.V.Suleymanova**

## THE MAIN THEMES IN THE AZERBAIJANI POETRY OF THE XV CENTURY (on the basis of Gulshani's and Kishvari's creation)

## SUMMARY

The dissertation consists of "Introduction", three chapters, "Conclusion" and bibliography.

In "Introduction" are substantiated the urgency of the subject, scientific novelty, theoretical and practical significance of the work; is given the information about the purpose, tasks, methods of the research, appraisal and structure of the dissertation.

In the first chapter "The historical-cultural situation and literary process in the XV century", which consists of two parts are determined the place and role of this period in the history of Azerbaijani literature, are analyzed its peculiarities and influence on the following periods; is emphasized prevalence of the literature written in native language; is traced the development of the three-language literature, formation of national character, predominance of national self-determination in the quest for themes, formation of Azerbaijani emigrant literature in Iran, Syria, Middle Asia, Egypt, Turkey. Despite influence of Navayi's and Chagatay languages, syllabic versification (Khazani, Gulshani), the aruz metre and gazel predominated at during that period; religious-mystical ideas were the ideological basis of Azerbaijani literature dominated. These peculiarities characterize Azerbaijani literature of the XV century. During the study of literary process are systematized and analysed the main themes and ideological sources of the poetry of that period.

In the second chapter "The main themes in Sh.I.Gulshani's creation" which consists of three parts Gulshani's native language poetry that is the artistic expression of his religious-philosophical ideas is appreciated as sectarian and mystical literature; his poetical works are revealed from the standpoint of esoteric theory and mystical symbolism. Is determined the role of parables, themes and citations from the Koran as ideological-artistic sources. This poetry based on the divine love is appreciated not only for its literature essence, but also for its divine depth as source of knowledge turned to cognition, truth and perfection.

In the third chapter "The main themes of Kishvari's poetry" which consists of three parts is given for the first time ideological-subject and artistic-aesthetic analysis of Kishvari's poetry; are traced mutual relations between mystical, religious and secular ideas. Kishvari is characterized as a secular poet whose creation is harmony of wisdom, poetical sensuality, observations and talent. In his artistic-aesthetic expression of the world outlook the poet is close to the people's language. So Kishvari's poetry was a basis of the formation of the Azerbaijani literary language. Social themes in his poetry that reflect human values, care, relations are considered to be reason of social-world sorrow.

In "Conclusion" are generalized the main results of the research.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
**БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

***На правах рукописи***

**МЕЛЕК ВАСИФ кызы СУЛЕЙМАНОВА**

# ОСНОВНЫЕ МОТИВЫ В АЗЕРБАЙДЖАНСКОЙ ПОЭЗИИ XV ВЕКА
**(на основе творчества Гюльшани и Кишвари на родном языке)**

**5716.01 – Азербайджанская литература**

**А В Т О Р Е Ф Е Р А Т**

**Диссертации на соискание ученой степени доктора философии по филологии**

**БАКУ - 2014**